# Ölkəmizdə turizmin tarixi və bu günü



Sport hotel (Qəbələ).



Karvansaray hotel (Qəbələ).

Müasir dövrdə iqtisadi inkişafa ciddi təsir göstərən və mühüm strateji əhəmiyyətə malik olan Turizmin tarixi Azərbaycanda 100 ildən çoxdur. 1908-ci ildə Rusiyada fəaliyyət göstərən Krım Qafqaz dağ klubunun bir bölməsi Bakıda fəaliyyətə başlamışdı. Bu bölmənin başlıca vəzifəsi Qafqazda turizmlə bağlı araşdırmaların aparılması və ekskursiyaların təşkili idi. XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı və Azərbaycanın digər ərazilərindəki karvansaralarından mehmanxana kimi istifadə olunurdu. Bununla belə Bakıda həmin dövrdə “Astoriya”, “Bolşaya Moskva”, “Ermitaj”, “Marsel”,“Madrid”, “Metropol”, “İmperial” kimi yüksək səviyyəli mehmanxanalar da fəaliyyət göstərirdi. Ekskursiyaların, alpinist, velosiped və piyada yürüşlərinin geniş yayılması bu sahəyə marağın artmasına, həvəskarların ixtisaslaşmış cəmiyyətlərdə birləşməsinə səbəb olmuşdu. Rusiya turizm cəmiyyəti 1910-cu ildən Qafqaza müstəqil səyahətlər təşkil etməyə başlamışdı.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da turizmə diqqət yüksələn xətlə davam etdirildi. 1928-ci ildə Azərbaycan Komsomolu Mərkəzi Komitəsi nəzdində Turizm bürosu yaradıldı. “Sovetski turist” (1928) və “İnturist” (1929) Səhmdar Cəmiyyətləri 1929-cu ildən başlayaraq Qafqaza və Cənubi Qafqaza-ocümlədən Azərbaycana turist marşrutları təşkil etməyə başladı. Bakıda artıq mərkəzi turizm təşkilatlarının bölmələri fəaliyyət göstərirdi.

1936-cı ildə Bakı Turist Bazası (BTB) Hacıkənd turist evi və Göygöl turist düşərgəsi, 1950-ci ildən Bakı Ekskursiya Bazası yaradılmış, BTB onun tərkibinə daxil olmuşdu. 1957-ci ildə Azərbaycan hökümətinin qərarı ilə Göygöl 1962-ci ildə Mingəçevir və Hacıkənd turist bazaları yaradılmışdı.

Rayonumuzda 1970-ci illərin əvvəllərində “Qafqaz” turist bazası istifadəyə verilmişdir. Həmin illərdə ulu öndər Heydər Əliyevin göstərişi və birbaşa qayğısı ilə Şuşa, Zaqatala, Qəbələ, Xankəndi, Sumqayıt, Naftalan, Gəncə və yalamada turist baza və klubları açılmışdı.

1984-cü ildə Azərbaycan SSR Baş Xarici Turizm idarəsi yaradılmışdı. Respublikamıza 1984-cü ildə 290 min turist gəlmişdi. 1987-ci ildə artıq Azərbaycanda 17 turizm və ekskursiya bürosu, 8 turist bazası, 6 turist mehmanxanası fəaliyyət göstərirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə turizm müasir həyat tərzinin və mədəniyyətinin mühüm atributu, beynəlxalq əlaqələrin bir forması kimi inkişaf etdirilir. 1999-cu ildə “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi bu sahənin işinə xüsusi impuls vermişdir. 18 aprel 2001-ci ildə Respublika Gənclər İdman və Turizm Nazirliyi yaradılmışdır.

Fəaliyyət istiqamətinin səmərəliliyini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 2006-cı il tarixli Fərmanı ilə Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi ləğv edilərək Mədəniyyət və Turizm Nazirliyi yaradılmışdır. Turizm sektorunu mütəxəssis kadrlarla təmin etmək məqsədilə 2006-cı ildən Turizm İnstitutu fəaliyyətə başlamışdır.

Hazırda Azərbaycan Respublikası 20-dən artıq dövlətlə (Türkiyə, Çin, Polşa, İtaliya, Bolqarıstan, Yunanıstan və s.) turizm sahəsində əməkdaşlıq haqqında saziş imzalamışdır. 2002-ci ildən başlayaraq hər il Bakı şəhərində Beynəlxalq Turizm Sərgisi keçirilir. Respublikamızın turizm imkanları beynəlxalq turizm sərgilərində (London, Moskva, Berlin, İstanbul, Əl-Küveyt, Daşkənd, Tbilisi, Kiyev və s.) nümayiş etdirilir. 2006-cı ilin sentyabrında İslam Konfransı Təşkilatına üzv dövlətlərin turizm nazirlərinin V Konfransı Bakıda keçirilmişdir. Həmin Konfransda qəbul edilmiş “Bakı Bəyannaməsi” ölkəmizdə turizmin inkişafına kömək göstərmişdir.

“Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı” təsdiq edildikdən sonra ölkəmizdə turizm ehtiyatlarından daha səmərəli istifadə olunur.

Azərbaycanda turizmin cəlbediciliyini artıran amillərdən biri də tarix və mədəniyyət abidələridir. Ölkəmizdə dövlət tərəfindən qorunan 6308 tarix və mədəniyyət abidəsinin 65-i dünya, 2034-ü ölkə, qalanı isə yerli əhəmiyyətlidir. 2000-ci ildə Bakı şəhərindəki İçərişəhər Şirvanşahlar sarayı və Qız Qalası YUNESKO-nun Dünya irs siyahısına salınmışdır. “İçərişəhər” Tarix-Memarlıq qoruğunun ərazisindəki 10 dünya, 27 ölkə əhəmiyyətli abidə maraqlı turizm obyektləridir.

Yuxarıda qeyd etdiyim kimi rayonumuzda turizmin tarixi Azərbaycanda turizmin tarixi ilə eyni vaxta təsadüf etsə də bu sahədə əsas inkişaf ötən əsrin 70-ci illərindən-ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik illərindən başlanır. Elə müstəqillik illərində də rayonumuzda turizmin inkişafı ulu öndərin adı ilə bağlıdır. Ötən əsrin 80-ci illərinin sonunda baş verən məlum hadisələr nəticəsində iqtisadiyyatın bütün sahələri kimi turizm sektoru da tənəzzülə uğradı. Turizm obyektləri müxtəlif bəhanələr altında dağıdıldı. Bundan başqa indi Ermənistan adlanan tarixi torpaqlarımızdan, Dağlıq Qarabağdan və ətraf rayonlardan erməni quldurları tərəfindən qovulmuş soydaşlarımız turist bazalarına yerləşdirildilər. Qəbələdəki eyni vaxta 500 nəfərə qədər turist yerinə malik «Qafqaz» Turist Bazasına da məcburi köçkünlər yerləşdirildi.

2002-ci ildə ulu öndər Heydər Əliyevin rayonumuza səfəri Qəbələdə turizmin inkişafında, eyni zamanda keçmiş turist bazasında çətin şəraitdə yaşayan soydaşlarımızın həyat şəraitinin yaxşılaşdırılmasında əsaslı dönüş yaratdı. Soydaşlarımız hər cür şəraiti olan yeni şəhərciyə köçdülər. Ulu öndər rayonumuzun iqliminin, zəngin təbiətinin, maddi mədəniyyət abidələrinin zənginliyini nəzərə alaraq burada turizmin inkişafı üçün mühüm tədbirlərin görülməsi haqqında tapşırıq və tövsiyyələrini verdi.

Hazırda Qəbələdə 10-larla yüksək səviyyəli hotel, istirahət mərkəzləri fəaliyyət göstərir. Turistlərin maraqla səyahət etdiyi Qədim Qəbələ şəhəri ərazisinə asfalt yol çəkilmiş, burada qonaq evi, digər infrastruktur yaradılmışdır.

Dağ xizək idmanını inkişaf etdirmək, bu sahədə turistlərin ehtiyacını ödəmək məqsədilə “Tufandağ” dağ-xizək kompleksi yaradılmış, uca dağlara kanat yolu çəkilmişdir.

Qəbələ və ətraf rayonların xarici turistlər üçün cəlbediciliyini nəzərə alan Respublika hökuməti Qəbələ Beynəlxalq Hava Limanının istifadəyə verilməsini təmin etmişdir.

Bir vaxtlar Azərbaycanda belə az tanınan Qəbələ şəhəri artıq dünyanın əksər ölkələrində inkişaf etmiş turizm bölgəsi kimi, mədəniyyət mərkəzi kimi tanınır.

**Qüdrət SƏMƏDOV.**